Funded by
the European Union

EU4Environment
Green Economy in Eastern Partner Countries

# Azərbaycanın nümunəsində istehsalat müəssisələri üçün Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) prinsipləri əsasında biznes planın yazılması üzrə EU4Environment Təlimi

## GÜNDƏLİK

**Tarix:** Noyabr 22, 2023

**Vaxt:** 9:30 - 17:30 (Bakı vaxtı)

QEYDİYYAT LİNKİ

Format: onlayn video konfrans
Dil: Azərbaycan (ingilis dilinə sinxron tərcümə ilə)

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

# GÜNDƏLİK

**Moderator:** xanım Asya Çələbova, ACE Group Consultants, UNIDO-nun Azərbaycanda milli icra tərəfdaşı (MİT)

| Vaxt | Bənd |
|---|---|
| 9:00 – 9:30 | **Qeydiyyat** |
| 9:30 – 09:45 | **Açılış nitqi və EU4Environment proqramı ilə qısa tanışlıq**<br>*xanım Asya Çələbova, ACE Group Consultants, MİT* |
| 09:45 – 10:20 | **Biznes Planın əsasları**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert*<br><br>**RSDTİ biznes planın çərçivəsi**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert* |
| 10:20 – 11:00 | **İstehsal üzrə fərziyyələr və maliyyə proqnozları (təcrübə nümunəsi)**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert* |
| 11:00 – 11:30 | **FASİLƏ** |
| 11:30 – 13:00 | **İstehsal üzrə fərziyyələr və maliyyə proqnozları (təcrübə nümunəsi)**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert* |
| 13:00-14:00 | **NAHAR** |
| 14:00 – 14:20 | **RSDTİ layihələrinin investisiya gəlirliyinin yaxşılaşdırılması**<br>*Cənab Sergey Faşçevski, Beynəlxalq Ekspert, Sigra Group, Norveç* |
| 14:20 – 15:00 | **Pul vəsaitlərinin hərəkətinə dair proqnozların hazırlanması**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert* |
| 15:00 – 15:30 | **Mənfəət və zərər əsaslı proqnozların hazırlanması**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert* |
| 15:30 – 16:00 | **FASİLƏ** |
| 16:00-16:20 | **Maliyyə əmsallarının hazırlanması**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert* |
| 16:20-16:40 | **RSDTİ marketinq və icra Planının hazırlanması**<br>*Cənab Cavanşir Abdullayev, Biznes və Maliyyə İnkişafı üzrə ekspert* |
| 16:40 – 17:10 | **Suallar və Cavablar** |
| 17:10 – 17:30 | **Yekun çıxışlar və tədbirin bağlanışı** |

## Seminarın məqsədləri, gözlənilən aralıq və yekun nəticələr

Bir günlük təlim Avropa İttifaqı tərəfindən maliyyələşdirilən EU4Environment proqramı çərçivəsində təşkil olunur. Bu təlim UNIDO RSDTİ Nümayiş Layihəsinə cəlb olunmuş Azərbaycan və Şərq Tərəfdaşlığı ölkələrinin müəssisələrinə yaşıl maliyyələşdirmə üçün müraciət edərkən öz mövqelərini gücləndirmək üçün biznes planın yazılma qaydalarını anlamağa kömək etmək məqsədi daşıyır. Biznes Plan bir çox məqsədlərə xidmət edir: o, investorların və müştərilərin dəstəyini cəlb etmək, şirkət daxilində işçilərə istiqamət vermək məqsədilə, habelə müəssisə haqqında ictimai rəyi dəyişdirmək və ya rəhbərlərin və menecerlərin müəssisənin RSDTİ yolunda irəliləyişini qiymətləndirə biləcəyi yol xəritəsi kimi istifadə oluna bilər. Bu təlim iştirakçıların RSDTİ biznes planının mahiyyətini onun faydalarını, fərziyyələri və gözləntiləri, investisiya ilə bağlı məsələləri, pul vəsaitlərinin hərəkəti və mənfəət/zərər proqnozunun hazırlanması, maliyyə əmsallarını öyrənməklə və icra planı hazırlamaq üçün zəruri addımları atmaqla başa düşməsinə kömək edəcəkdir.

## İştirakçılar

Təlimin auditoriyası Azərbaycanda və Şərq Tərəfdaşlığı ölkələrində maliyyə menecmenti və risklərin qiymətləndirilməsi, ətraf mühitin idarə edilməsi, enerji səmərəliliyi, mühəndislik (kimya, sənaye, ətraf mühit və ya əlaqəli sahələr) və/və ya istehsal şirkətlərində çalışan mütəxəssislər, habelə Hökumət, KOB-ların inkişafına cavabdeh olan agentliklərin təmsilçiləri, maliyyə qurumları, akademik dairələrin üzvləri və sənaye sahələrində çalışan mütəxəssislərdir. İqtisadiyyat sektorundan və ya təcrübə sahəsindən asılı olmayaraq istənilən maraqlı müəssisə və ekspertlər də iştiraka dəvət olunur. İştirakçıların ilkin sayı 50 nəfərdir.

## Qeydiyyat

Bu onlayn tədbirdə iştirak etmək üçün ən azı bir gün əvvəl aşağıdakı link vasitəsilə onlayn qeydiyyat formasını doldurun: https://unido-org.zoom.us/meeting/register/tZMlc-Ctqj0qGNXChBnBbiJWdI0HEJHPUIyV

## Ümumi məlumat

Hal-hazırda müəssisələrin istehsal və ekoloji fəaliyyətinin yaxşılaşdırılması üçün ən mühüm yanaşmalardan biri Resurs Səmərəliliyi və Daha Təmiz İstehsalın (RSDTİ) tətbiqidir. Bu yanaşma ifrat xərcləmələrin qarşısını almaq, ətraf mühitə çirkləndiricilərin emissiyasını və atqıları azaltmaq və tullantıların yaranmasını azaltmaq üçün resurslara, enerjiyə və materiallara qənaət potensialının davamlı qiymətləndirilməsinə əsaslanır ki, bu da hər şeydən əvvəl müəssisədə iqtisadi xərclərin azalmasına töhfə verir. Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) ətraf mühitin mühafizəsinə yönəlmiş qabaqlayıcı strategiyaların tətbiqi üçün ümumi termin kimi istifadə olunur. Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO) müəssisədə istifadə olunan bütün növ resursların itki mənbələrini müəyyən etməyə, belə itkilərin əsas səbəblərini təsbit etməyə, müəyyən edilmiş resurs itkilərini azaltmağa və ya tamamilə aradan qaldırmağa yönəlmiş tədbirlər hazırlamağa və belə tədbirlərin rentabelliyini qiymətləndirməyə kömək edən RSDTİ metodologiyasını işləyib hazırlamışdır.

## EU4Environment Təşəbbüsü haqqında

“Avropa İttifaqı Ətraf Mühit naminə” (EU4Environment) layihəsi altı tərəfdaş ölkəyə (Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna) ekoloji fəaliyyətləri dəstəkləməklə, yaşıl inkişaf imkanlarını nümayiş etdirməklə və rəvac verməklə, ekoloji risk və təsirlərin daha yaxşı idarə olunması üçün mexanizmləri müəyyənləşdirməklə altı tərəfdaş ölkənin təbii sərvətlərini qorumağa və əhalinin rifahını yaxşılaşdırmağa kömək etmək məqsədilə həyata keçirilir. Layihə, təqribən 20 milyon AVRO büdcə ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və beş tərəfdaş təşkilatla birgə icra olunur: İƏİT, UNECE, UNEP, UNIDO və Dünya Bankı. Təşəbbüsün icra dövrü 2019-2024-cü illəri əhatə edir. Təşəbbüs haqqında daha ətraflı məlumat üçün bu səhifəyə daxil olun: www.eu4environment.org Azərbaycanda RSDTİ fəaliyyətləri haqqında daha ətraflı məlumat üçün bu səhifəyə daxil olun: https://recp.aceconsultants.az/en